GEDEON RICHTER

*Established in 1901*

№ 35

«12» 03 2025

GEDEON RICHTER

**XƏSTƏ XƏBƏRDALIQ KARTI**

**Kardatuksan® 2,5 mq, 10 mq, 15 mq, 20 mq örtüklü tabletlər üçün**

**Xəstə xəbərdarlıq kartı**

**Kardatuksan® 2,5 мг** (təyin olunmuş dozanı işarələyin)
**Kardatuksan® 10 мг** (təyin olunmuş dozanı işarələyin)
**Kardatuksan® 15 мг** (təyin olunmuş dozanı işarələyin)
**Kardatuksan® 20 мг** (təyin olunmuş dozanı işarələyin)

- **Bu kartı həmişə yanınızda saxlayın.**
- **Müalicədən əvvəl bu kartı hər bir həkimə və ya stomatoloqa göstərin.**

**Mən Kardatuksan® (rivaroksaban) ilə antikoaqulyant müalicə alıram.**
Ad:
Ünvan:
Doğum tarixi:
Çəki:
Digər dərman vasitələri / hallar:

**Təxirəsalınmaz hallarda bildirin:**
Həkimin adı:
Həkimin telefon nömrəsi:



"Gedeon Richter" Representation Office in Azerbaijan
Istiglaliyyat str. 29/14, Baku AZ1001 Azerbaijan • Phone: +994 12 492 76 23, +994 12 492 30 21
e-mail: richter@azeurotel.com

Həkim möhürü:

**Həmçinin məlumat verin:**
Ad:
Telefon:
Münasibət:

**Tibb işçiləri üçün məlumat:**
BNN *dəyərlərindən istifadə edilməməlidir*, çünki Kardatuksan® dərman vasitəsinin antikoaqulyant aktivliyinin etibarlı göstəricisi deyildir.

**Kardatuksan® haqqında nə bilməliyəm?**

- Kardatuksan® qanı durulaşdırır, bu da təhlükəli qan laxtalarının əmələ gəlməsinin qarşısını alır.
- Kardatuksan® həkimin təyin etdiyi kimi qəbul edilməlidir. Qanın laxtalanmasına qarşı optimal qorunma təmin etmək üçün heç vaxt hər hansı dozanın qəbulunu unutmayın.
- Həkimlə məsləhətləşmədən Kardatuksan® qəbulunu dayandırmaq olmaz, çünki qanın laxtalanma riski daha da arta bilər.
- Kardatuksan® qəbul etməyə başlamazdan əvvəl hazırda qəbul etdiyiniz, bu yaxınlarda qəbul etdiyiniz və ya qəbul edə biləcəyiniz digər preparatlar barədə həkimə məlumat verin.
- Hər hansı əməliyyat və ya invaziv prosedurdan əvvəl Kardatuksan® qəbul etdiyinizi həkimə bildirin.

**Həkimə nə zaman müraciət etməliyəm?**
Kardatuksan® kimi qan durulaşdırıcı dərman vasitəsinin qəbulu zamanı onun mümkün əlavə təsirləri haqqında bilmək vacibdir. Ən çox rast gələn əlavə təsir qanaxmadır. Qanaxma riskinizin olduğunu bilirsinizsə, bunu həkimlə müzakirə etmədən Kardatuksan® qəbul etməyə başlamayın. Sizdə qanaxmanın aşağıdakı hər hansı əlaməti və ya simptomları qeyd olunduqda, dərhal həkimə məlumat verin:

- ağrı
- ödem və ya diskomfort
- baş ağrısı, başgicəllənmə və ya zəiflik
- anormal göyərmələr, burun qanaxmaları, diş əti qanaxmaları, qanaxmanın uzun müddət dayandırıla bilmədiyi zədələnmələr
- adi halla müqayisədə daha ağır menstrual qanaxma və ya vaginal qanaxma
- sidikdə çəhrayı və ya qəhvəyi rəngli qan, qırmızı və ya qara rəngli nəcis
- qanlı öskürək və ya qanlı və ya qəhvə çöküntüsü kimi görünən qusma.

**Kardatuksan® necə qəbul edilməlidir?**

♦ Optimal qorunmanı təmin etmək üçün Kardatuksan®

- 2,5 mq yeməklə və ya yeməksiz qəbul edilə bilər
- 10 mq yeməklə və ya yeməksiz qəbul edilə bilər
- 15 mq yeməklə qəbul edilməlidir
- 20 mq yeməklə qəbul edilməlidir

Hörmətlə,

Həsənova Saida

«Gedeon Richter» Azərbaycandakı Nümayəndəliyin müdiri